# Ədəbiyyatın mizanı pozulub

## *Aqil Abbas: "Bədii dil mənə Allah tərəfindən verilib, ictimai dili sonra öyrənmişəm"*

**Müsahibimiz yazıçı, millət vəkili Aqil Abbasdır. Aqil müəllimlə görüşüb ədibin əsərlərindən, romanı əsasında çəkilmiş filmdən danışdıq:**

**- "Elm və Həyat" jurnalı, "Sovet kəndi", "Ədalət", Milli Məclis Aqil Abbasa fikrini bədii dildə çatdırmaq asandır, yoxsa ictimai dildə?**

- Təbii ki, bədii dildə. Bədii dil mənə Allah tərəfindən verilib, ictimai dili sonradan öyrənmişəm.

**- 90-cı illərdə milli ədəbiyyatımızda 60-lar ədəbi nəslinin bəlli bir romantikası yaddaşımıza həkk olunmuşdu. Amma o dövrdə sizin bəzi emosional ruhlu qəhrəmanlarınız var idi. "Saçın ucun hörməzlər"də, "Allahı qatil edənlər"də və sair. O personajlar dövrün oxucusunun tələblərindən yaranmışdı, yoxsa zamanın emosional ruha ehtiyacından?**

- İnsan nəyisə görür, müşahidə edir, ətrafdan informasiya alır, yaxud verir - bütün bunları oxucuya çatdırmaq ehtiyacı hiss edirsən. "Çadırda Üzeyir Hacıbəyov doğulmaz" əsəbdən yazılmış əsərdir. O vaxt mən onu çap edəndə dedilər, Çingiz Xan çadırda doğulub, siz deyirsiniz, Üzeyir Hacıbəyov doğula bilməz. Dedim, Çingiz Xan qaçıb gedib Vladivostokdakı çadırda doğulmamışdı, Çingiz Xan Moskvanı alıb, orda qızıl çadır qurmuşdu. Onlar ayrı-ayrı şeylərdi. Siz niyə o çadırla bu çadırı səhv salırsınız?! Sən Şuşadan düş gəl, Saatlının ilan mələməz çölündə çadır qur, orda necə yetişə bilərsən?! Cəmiyyət yox, mühit yox, məktəb yox. Lap Allah sənə böyük bir vergi verib, onu necə üzə çıxardacaqsan?! O əsərdə həm də insanların geri qayıtma, intiqam arzusu, bir az da yumor var idi. Mən tez-tez gedirdim çadır şəhərciklərinə. Bir dəfə mənə telekanalların birində sual verdilər ki, Həccə getmisiniz? Dedim, hə, iki yüz dəfə getmişəm. Aparıcı çaşıb qaldı. Dedim, mənim Həccim Ağcabədidə, Saatlıda, Sabirabaddakı çadır şəhərləridir. Mən ora getdiyimi Həcc bilirəm. Mən o əsəri çadırın içini, çölünü, orda olanları bilirdim deyə yazdım.

**- Bəs bu əsərə oxucunun reaksiyası necə olmuşdu?**

- Oxucu öz dərdini, özünü gördü o əsərdə. Çox yüksək qiymətləndirmişdi. Orada yaşayanlara da təsir etdi, orada yaşamayıb Bakıda lüks evdə məskunlaşanlara da çadırdakının dərdlərini başa düşdülər. Bir yer var o əsərdə, tarix müəlliminə bir kağız verirlər ki, sabah prezident gəlib qaçqınlarla görüşəcək. Burada yazılanları oxuyarsan. Nəsə, görüş vaxtı tarix müəllimi deyir ki, möhtərəm prezident mənə bir kağız vermişdilər, amma mən onu oxumaq istəmirəm. Mən altı ildir arvadımla yata bilmirəm. Çünki bir çadırda beş uşaq, arvad və mən qalırıq. Başlayır bütün həyatı danışmağa. Deyir, ya bizi Şuşaya qaytar, ya da özüm çıxıb gedəcəyəm.

**- Müsahibələrinizin birində gəncliyinizdə Qara Qarayevi sevmədiyinizi demisiniz. Bəs indi klassiklərimizə biganə olan gənclərə münasibətiniz necədir?**

- Məsələ odur ki, biz muğamla böyümüşük. Caz musiqisi, simfoniya bizə o vaxtlar yad idi. Biz Səməd Vurğunu bəyənirdik, Rəsul Rzanı yox. Elə bilirdik, Rəsul Rza yaza bilmir. Onu kimi musiqidə də, elə bilirdik, Qara Qarayev, Arif Məlikov böyük bəstəkar deyil. Ancaq Bakıya gəlib mühiti görəndən sonra anladım ki, elə ən böyük sənətkarlar onlar imiş. Qara Qarayevi o vaxt bizim gözümüzdən salırdılar. Guya Üzeyir Hacıbəyova "bozbaş" deyib. Sonra öyrəndik ki, Qara Qarayevin Üzeyir Hacıbəyova verdiyi qiyməti, bəlkə də, heç kim verməyib. Qara Qarayev Üzeyir bəy haqda deyib ki, o elə zirvədir ki, biz ora çata bilmərik. Ona görə də özümüzə başqa yaradıcılıq cığırı seçdik. Qara Qarayev, Arif Məlikov, Fikrət Əmirov da başqa bir yol tutdular. Mən onları anlayandan sonra dünya simfonik əsərlərini başa düşürdüm. Bizim bir Kamil müəllim var idi, deyirdi ki, siz Rəsul Rzanı başa düşmürsünüz, çünki o sizdən yuxarıda dayanıb, gərək ora çatasınız, ancaq siz istəyirsiniz ki, o sizin səviyyənizə ensin. Yəni, insan oxuduqca, gördükcə hər şeyi dərindən anlayır.

**- "Qocalmaq" və "köhnəlmək". Ədəbiyyatda da varmı bələləri - qocalanlar və köhnələnlər?**

- O, Habil Əliyevin dediyi fikirdir. Biri var adam yaşlanır, qocalır, biri də var cavan yaşında köhnəlir, yəni köhnə düşünür. Gənc nəsildən arxayınam. Yenidirlər. Sadəcə, ədəbiyyatın mizanı pozulub. Biri şeir yazıb "facebook"da paylaşır, iki yüz nəfər rəy yazır, elə bilir, dahidir. Ancaq nehrə çalxalanır, ayranı ayran, yağı yağ edir. Həmişə belə olub. 60-larda da, Nizaminin dövründə də.

**- "Dolu" əsərinin epiqrafında "Xahiş edirəm, bu əsərdə kimi isə, nəyi isə axtarmayın. Bunlar hamısı təxəyyüldən başqa bir şey deyil" yazmaq ehtiyacı nədən yaranmışdı?**

- Müəllif kimi özümü sığortalamaq üçün.

**- Axı Qarabağ hadisələrinin çoxunun şahidi idiniz...**

- Şahidi idik və hamı da özünü tapdı. Ən çox komandir obrazı haqqında mübahisə düşürdü. Biri deyirdi, Şirin Mirzəyevdir, o biri deyirdi, Allahverdi Bağırovdur və sair. Ancaq mən o əsəri yazanda Allahverdi Bağırovu gözümün önünə gətirib yazmışam. Sonra açıqlama da vermişdim. Hər yerin, hər kəsin bir qəhrəmanı var, qoy hamı öz komandirini o obrazın yerinə qoysun.



**- "Dolu" filminin sonunun nikbinliklə bitməsi bəzi adamlarda qıcıq yaratmışdı. Sanki adamlar Vətənə qayıdışa inanmaq istəmirdilər...**

- Onu Vətənə qayıtmaq istəməyənlər irad tuturdu. Bir fakt deyim. Bu film Konyada göstəriləndə final səhnəsində kimsə qışqırdı. Gördülər ki, bir professordur, deyir ki, bu filmi çəkənin ayaqlarından öpmək istəyirəm. Dedilər, çəkən yoxdur, amma yazan var. "Yazan boş şeydir, çəkəni görmək istəyirəm", - dedi. Yəni film tamaşaçıları çox heyrətləndirmişdi. Axırda ruhlar da, adamlar da gedir torpağı almağa. Hər kəs ürəyində nədisə onunla düşünür. Vətənin gələcəyini nikbin görənlər nikbin, bədbin görənlər bədbin fikirləşir. Ancaq bizim bir səhvimiz var idi. Bu haqda yazmışdım. Deməli, kütləvi səhnələri çəkəndə adamları Ağcabədinin kəndlərindən gətirmişdik. Çəkiliş olan kəndə iyirmi maşın adam gedirdi. Bayraqla, hərbi maşınla filan. Ağdam camaatı da elə bilirdi biz Ağdama gedirik. Bəlkə min adam gəlib ki, biz də gedirik. Mən qışqırırdım ki, ay camaat, icazə verin kinomuzu çəkək. Bir də gördüm dava düşüb. Mənim oğlanlarımla kənd adamları arasında. Həmin vaxtlarda haqqımda çəkilən bir sənədli kinoda o yerdən hoppanıb Ağdama tərəf getmişdim. Orda kimsə məni tanımışdı, deyirdi, bəs niyə getmədin, bizi aldatdın, indi də kino çəkirsən burda. Dedim düz deyir də. Aldatmışıq bu camaatı. Onda gürcülər bizə demişdi ki, bu millətin əlindən torpaqlarını necə alıblar? Hərə əlində bir balta, yaba gəlib ki, gedirik Ağdama.

Hərdən deyirlər ki, Qarabağ geri alınanda qaçqınlar öz torpaqlarına qayıtmayacaq. Xeyir! Əvvəl Ağdamın kəndlərində 45 min adam yaşayırdısa, indi 95 min adam var. adamlar öz torpaqlarında yaşamaq istəyir. Mənə, başqa qarabağlı deputatlara nə qədər məktub gəlir bu barədə. İstəyirlər Ağdamda, Füzulidəki kəndlərdə yaşasınlar.

**- Bəzi jurnalistlər, tənqidçilər "Dolu" filminin səhnələrinin süni alındığını yazmışdılar. Xüsusən, onlar Draqonun nərə çəkib hücuma keçməsi səhnələrini vurğulayırdılar. Niyə adamlara bu səhnələr qurma kimi görünürdü?**

- Çünki o adamların müharibədən xəbəri yoxdur. Qəhrəmanlıq nədir bilmirlər. Onlar o döyüşləri, həmin insanları görməyən adamlardır, Bakıda oturub müharibədən roman yazırlar. O qədər olub ki, özünü tankın qabağına atanlar, güllə qabağına keçənlər. Dostu, ailəsi üçün ölən o qədər adam olub ki. Həmin tənqid edənlər tanımır onları.

**- Niyə bu gün yazılan Qarabağ mövzulu romanlar, hekayələr oxucuya təsir etmir?**

- Bir nəfər xanım bir neçə il qabaq mənə dedi ki, Qarabağ haqqında roman yazmışam. Yaşı Qarabağı görməyə çatmırdı. Dedim, ay qızım, sən Qarabağdan nə yaza bilərsən? Uzaqbaşı atanın, dayının danışdığı gopları. İndi o qədər süni yazırlar ki. Elə bilirlər ermənini vəhşi göstərməklə onlara nifrət oyatmaq olar. Biri yazır ki, ermənilər kəsdiyi başdan xaş bişirib. Gör bu cür münasibət nə qədər gülünc görünür. Belə ifadə etmək olmaz axı nifrəti. O qədər real fakt var ki, yazsan hamı həqiqəti biləcək. Ancaq bilmirlər deyə, yazmırlar.

**- Ancaq Jül Vern də heç bir yerə getmədən səyahət romanları yazıb...**

- Mən də "Batman qılınc"ı yazmışam. Qacardan, onun dövründən. Mən o əsəri yazmaq üçün 400-500 kitab oxumuşam. Ordubadi Nizami dövründə yaşamayıb. 100 il sonra da Qarabağ haqqında nəsə yazılacaq. Necə yazacaqlar? Oxuyub, bilib yazmalıdırlar. Mənim dediyim budur. Mən "Dolu"da gördüklərimin heç on faizini yazmamışam.

**- Aqil müəllim, əksərən Qarabağ haqqında danışanda adamları ad-ad qeyd edirsiniz. O adamları şəxsən tanımısınız. Çətin deyil hələ də onlarla - həmin adamlarla yaşamaq?**

- Əlbəttə, çətindir! Birdən-birə hamısı gəlib durur gözümün önündə. Mənim hələ də ölçü vahidlərim Qarabağdır. Bir yerə gedəndə deyirəm burdan ora qədər məsafə Bakıdan Ağdamacandır. Gözəl yer görəndə hələ də yadıma Laçın, Kəlbəcər, Şuşa düşür.

**- "Dolu"nun sonunda Qədir Rüstəmovun səsi gəlir uzaqdan...**

- Akif İslamzadədən o vaxt bir yazı yazmışdım. Yazmışdım ki, sənin səsin Allahın xoşuna gəlir, ona görə də mələklər sənin səsini soyub aparıblar. İndi Allah sənə qulaq asır. Biz öləndə sən gedib heç olmasa öz səsini orda eşidəcəksən, amma biz bir də o səsi eşitməyəcəyik, çünki hamımız cəhənnəmə gedəcəyik. Romanı yazanda Akif İslamzadədən üzr istəyib o fikri Qədir Rüstəmovla əvəzlədim. Qədir Qarabağın simvoludur. Təkcə Qarabağın yox, musiqimizin.

**- Əsərdə "Sarı gəlin" mahnısını dəyişib Çoban qaytar quzunu" "Tanrı qaytar ..." yazmısınız. Çobanı Tanrı ilə, quzunu isə üç nöqtə ilə əvəzləmisiniz. İstəyərdim o simvolları açıqlayasınız.**

- "Sarı gəlin"i iki nəfər oxuyub - Akif İslamzadə, Qədir Rüstəmov. Qalan kim oxuyursa, onların kölgəsində qalır. İkisi də ayrı cür oxuyur. Qədir mənim üçün müqəddəsdir. O, oxuyanda Qarabağ yadıma düşür, başqa kimsə oxuyanda yox. Bir də Tanrı qaytar... quzunu yox, Qarabağı. Çünki bizə ən vacib olanı Qarabağdır.

**- "Alatoran" haqqında danışmağınızı istəyərdim. Ədəbiyyatda böyük səs-küy yaratmışdı, ordan çıxan imzalar bu günün ədəbiyyatının əsas imzalarıdır. O vaxt "Alatoran"ın qarşı olduğu qurumlarla aranız dəymədi ki?**

- Tək "Alatoran" deyildi. Mən o vaxt gördüm ədəbiyyatda bir durğunluq var. "Körpü"nü Əsəd Cahangir buraxırdı, Samir Sədaqətoğlu buraxırdı birini, birini Qəşəm Nəcəfzadə buraxırdı - "Pərvanə", bir də "Alatoran". Bu dərgilərin üçü AYB tərəfdən çıxış edirdi, biri orta mövqe tuturdu, "Alatoran" isə tam radikal mövqedə idi. AYB-nin xətrinə dəyirdi ki, niyə bunları çap edirsən. Birincisi, gəncliyə kömək eləmək lazımdı. "Alatoran"dakı hansısa sərt mövqeyə bəzən özüm də cavab verirdim qəzetdə. Sonra adını "Nar" qoydular. İndi sağ olsunlar, heç mənim adımı çəkmirlər, özləri yaradıb kimi çıxış edirlər.

**- 37-ci il olsa, sizi nəyə görə güllələyərdilər?**

- Gənclərə çox kömək etdiyimə görə (gülür)

**- "Dolu"da bəy sözünə bir ironiya var...**

- Bəylik qanla gəlir, genetik olur. Hamı bəy ola bilməz.

**- Bəs müəllim xitabı?**

- Bizdə insanlar başqalarına hörmətlərini bildirmək üçün həmişə müəllim çağırırlar. Bu, həm də müəllimə olan hörmətə işarədir. Bir dəfə biri mənə zəng edib, deyir, filankəs bəyin köməkçisidir. Sözünü kəsib demişdim ki, bəyin köməkçisi olmur, nökəri olur. Mənim bütün əsərlərimdə ironiya var, adamlar bəzən bunu tutmur.

**- Futbol sevgisiylə ədəbiyyat sevgisi arasında oxşarlıq varmı?**

- Əlbəttə var. Ədəbiyyat da, futbol da insanın içindəki susuzluqdan, özünü ifadə etmək aclığından yaranır. Deyirlər Füzuli o qədər çirkin olub ki, qadınlar ona yaxın durmayıb deyə, o da sevgisini şeirlərə köçürüb. Mən də futbol oynaya bilmirəm deyə, baxanda daha çox ləzzət alıram. Həm də futbola bir dəfə baxa bilirsən, ikinci dəfə yox. Roman da elədir, bir dəfə oxuyursan, ikinci dəfə əvvəlki ləzzət ala bilmirsən.

**- Bizim ədəbi mühitdə niyə şəhər romanları sevilir?**

- Kənd əhalisi 9 milyondur, şəhər əhalisi 1 milyon. Kəndə nostalgiya daha çoxdur. Folkner həmişə bir kənddən yazıb. Soruşublar ki, bir kənddən nə qədər yazmaq olar? Deyib, bizim kənddə iki min adam yaşayır, deməli, iki min roman yazmaq olar.

**- "Dolu" romanı çıxanda mətbuatda bu əsər haqda çox yazı yazıldı... Sizcə, o roman haqqında yazılanlar aça bildimi əsərin mahiyyətini?**

- "Dolu" haqqında yazanların 70 faizi qeyri-ədəbiyyatçılar idi. Onlar öz istəklərini yazırdılar. Professional tənqidçilər də yazırdılar. Razılaşdığım məqamlar da olurdu, razılaşmadığım məqamlar da. Məsələn, Qan Turalı yazmışdı ki, Aqil Abbas ancaq Ağdamı tərifləyir. Dedim, Qan Turalı o romanda bir "Ağdam" sözü göstər əsərdən imtina edəcəm. Yoxdur orda "Ağdam" sözü. Bir az özümü tərifləyim, mənim yazı dilim şeir dilidir. Bu şeylər mənə bəlkə də Məmməd Arazdan gəlir. Onun yazdığı daşlar, ağaclar da insandır. Bu məsələyə də toxunmadılar.

**- Əsəriniz barədəki tənqidlərin biri də bu idi ki, obrazlar aqressivdir...**

- Müharibədə söyüş söyürlər də, aqressiv olurlar da. Müharibədən bəs necə yazarlar? Əgər sənin obrazın söyüş söyməlidirsə, qoy söysün, aqressiv olmalıdırsa, qoy olsun. Elə yazmasan, qəlbindən gələn kimi yaratmasan əsərin tempi aşağı düşür, süni görünür.

**Söhbətləşdi:**
**Fərid Hüseyn, Rəvan Cavid**